Azərbaycanın hər yerində 20 Yanvar şəhidlərinin xatirəsi ehtiramla anıldı

Sumqayıt

Xalqımızın qan yaddaşına qəhrəmanlıq tarixi kimi düşmüş 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar Sumqayıtda qeyd olunan hüzn günü tədbirinə on minlərlə sakin qatılmışdı. Xalqımızın yaddaşına, tariximizə qanla həkk olunan 20 Yanvar faciəsindən 30 il ötür. Ümumxalq Hüzn Günü Sumqayıt şəhərində böyük izdihamla qeyd olunub.

Şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov, hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə, müəssisə və təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri səhər saatlarında Sumqayıtdakı şəhidlər memorial kompleksini ziyarət ediblər.

Şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gül dəstələrinin qoyulması ilə başlayan anım mərasimində faciə qurbanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra mərasim iştirakçıları şəhərin Şəhidlər xiyabanında olmuş, şəhidlərin məzarları üzərinə qərənfillər düzüblər.

Saat 12:00-da şəhər ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, avtomobillərdən faciə qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq səs siqnalları verildi.

Sumqayıt Cümə məscidinin axundu şəhidlərin ruhuna dua oxuyub.

1990-cı ilin yanvar hadisələri zamanı, Sumqayıt–Bakı magistral yolunun 24-cü kilometrliyində, Ceyranbatan qəsəbəsi ərazisində şəhid olmuş sumqayıtlı alimlər – İbrahim İbrahimovun, İsmayıl Mirsaqulovun və Svetlana Məmmədovanın xatirə abidəsi də ziyarət edilib.

Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabeliyində olan klub, mədəniyyət evi və kitabxana və musiqi məktəblərində şərəf tariximizin qanla yazılmış 20 Yanvar səhifəsi xatirələr, ədəbi-bədii kompozisiyalar, kitab sərgiləri və musiqili çıxışlarla xatırlanıb. Sumqayıt Dövlət Dram Teatrında isə tanınmış rejissor, Əməkdar artist Namis Şirməmmədovun yeni quruluşunda yazıçı-dramaturq Hüseynbala Mirələmovun "Vicdanın hökmü" pyesinin tamaşası olub.

Abşeron

Abşeron rayonunda 20 Yanvar faciəsi qurbanlarının 30-cu ildönümü dərin ehtiramla yad edilib. Xırdalan səhərində şəhidlərin xatirəsinə ucaldılan abidə kompleksinin qarşısında keçirilən anım mərasimində rayon icra hakimiyyətinin başçısı İradə Gülməmmədova, rayon hüquq-mühafizə orqanlarının və icra strukturlarının rəhbərləri, ictimaiyyət nümayəndələri, 20 Yanvar şəhidlərinin ailələri, faciədə əlil olmuş şəxslər, müəllim və şagirdlər iştirak ediblər.

Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Saat 12:00-da nəqliyyat vasitələrindən səs siqnalları verilib.

Anım mərasimində Azərbaycan xalqına qarşı həyata keçirilən vəhşi terror aktı haqqında ətraflı məlumat verilib. Bildirilib ki, kütləvi terror nəticəsində yüzlərlə günahsız insan qətlə yetirilib və yaralanıb. Vurğulanıb ki, Azərbaycan xalqının qürur mənbəyinə çevrilmiş 20 Yanvar faciəsindən 30 il keçməsinə baxmayaraq, həmin hadisə təkcə ümumxalq hüzn günü kimi deyil, eyni zamanda, öz azadlığına və müstəqilliyinə can atan xalqımızın mübarizliyini, məğrurluğunu nümayiş etdirən qəhrəmanlıq tarixi kimi qeyd olunur.

Rayon rəhbərliyi və tədbir iştirakçıları şəhidlərin məzarlarını ziyarət edib, Azərbaycanın bütövlüyü və müstəqilliyi uğrunda canından keçən Vətən oğullarının məzarları üzərinə qərənfillər düzüblər.

Lənkəran

Lənkəranda da 20 Yanvar faciəsinin 30-cu ildönümü böyük ehtiramla qeyd olunub. Səhər saatlarından başlayaraq, idarə, müəssisə və təşkilatların əmək kollektivləri, minlərlə ictimaiyyət nümayəndələri Şəhidlər Xiyabanı küçəsində yerləşən "Şəhidlər Xatirə abidə kompleksi"nə gəliblər.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov başda olmaqla, icra aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının, hərbi hissələrin, ictimai birliklərin, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin kollektivləri mərasimdə iştirak ediblər. Şəhidlərin ruhuna dualar oxunduqdan sonra mərasim iştirakçıları abidə önünə gül-çiçək dəstələri düzüb, Vətənin azadlığı uğrunda canlarından keçmiş şəhidləri qədirbilənliklə yad ediblər. İcra başçısı abidə önündə 20 Yanvar şəhid ailə üzvləri və əlilləri ilə görüşüb söhbət edib, qayğıları ilə maraqlanıb.

Tədbir iştirakçıları daha sonra Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində rəssamlıq kursunun, Uşaq Rəssamlıq Məktəbinin və Uşaq Yaradıcılıq Mərkəzinin şagirdlərinin 20 Yanvara həsr olunmuş əl işlərindən ibarət rəsm sərgisi ilə tanış olublar.

Sonra tədbir iştirakçıları Lənkəran Dövlət Dram Teatrında yazıçı-publisist Ağaddin Babayevin "Ağlama, qərənfil, ağlama" anımtamaşasına baxıblar. Həmin gün saat 12:00-da respublikamızın hər yerində olduğu kimi, Lənkəran rayonunda da şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Küçələrdə nəqliyyatın hərəkəti dayanıb, maşınlardan səs siqnalları verilib.

Heydər Əliyev Mərkəzi, Lənkəran Regional Mədəniyyət İdarəsi və Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "20 Yanvar–qürur və İftixar günümüz" mövzusunda anım tədbiri keçirilib. İştirakçılar əvvəlcə yeniyetmə və gənclərin Qanlı Yanvar hadisələri ilə bağlı rəsm sərgisi ilə tanış olublar. Sonra Qanlı Yanvar hadisələri zamanı xalqımızın başına gətirilən müsibətlərdən və Azərbaycan xalqının azadlıq mübarizəsindən danışıb.

Çıxışlardan sonra məktəblilərin, tələbələrin hazırladıqları ədəbi-bədii kompozisiyalar, Qanlı Yanvar hadisələrini canlandıran səhnələr nümayiş olunub. Faciədən bəhs edən sənədli film göstərilib.

Astara

1990-cı ilin Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, mübarizə əzmini qıra bilmədi, həmin faciədə həlak olan Vətən övladları şəhidliyi ilə Azərbaycan tarixinə parlaq səhifə yazdılar. – Bu fikirlər yanvarın 20-də Astara rayonunda keçirilən anım mərasimində bildirilib.

Həmin müdhiş qış gecəsində imperiya əsgərlərinin gülləsinə tuş gələnlərdən ikisi astaralı idi. Bunlar rayonun Balaca Şahağac kənd sakini Əliyev Çingiz Mirzəhüseyn oğlu və Səlivə kənd sakini Əsgərov Novruz Faiq oğludur.

20 Yanvar faciəsi qurbanlarının xatirəsi rayonda böyük ehtiramla yad edilib. Mərasimdə rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev, idarə, müəssisə və təşkilatların nümayəndələri, müharibə və əmək veteranları, təhsil, səhiyyə, mədəniyyət işçiləri iştirak ediblər. Ziyarətçilər "Şəhidlər" Abidə-Kompleksinin önünə əklil qoyub, gül dəstələri düzüblər. Şəhidlərin ruhuna dualar oxunub.

Məktəblilərin ifasında 20 Yanvar faciəsinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirilib. Tədbir iştirakçıları 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş kitab və rəsm sərgisi ilə tanış olublar.

Masallı

Şəhidlərin anım günü rayon mərkəzində və ayrı-ayrı yaşayış məntəqələrində keçirilən tədbirlərlə yadda qalıb. Hər yerdə şəhidlərin xatirəsinə böyük etiram ifadə edilib.

Masallı şəhər Qəhrəmanlar parkında – şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önündə faciənin 30-cu ildönümü ilə əlaqədar ümumrayon anım mərasimi keçirilib. Səhər saatlarından başlayaraq, ziyarətə gələn insanları, minlərlə rayon sakinini bir amal birləşdirirdi: Azadlığımız, müstəqilliyimiz uğrunda canından keçənlərin xatirəsini yad etmək, onların mübarizəsinin haqq işi olduğunu bir daha bildirmək.

Anım mərasimində Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, hüquq-mühafizə orqanları, idarə, müəssisə, təşkilat rəhbərləri və əməkdaşları, məktəblilər, ziyalılar, Böyük Vətən müharibəsi və Qarabağ müharibəsinin veteranları, ictimaiyyət nümayəndələri 20 Yanvar şəhidlərinin abidəsi önünə əklillər, təzə-tər qərənfillər qoyaraq şəhidlərin ruhunu ehtiramla yad ediblər.

Eyni zamanda, Bakı vaxtı ilə saat 12:00-da rayonun bütün ərazilərində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, nəqliyyat vasitələri səs siqnalları veriblər.Tədbir gün ərzində davam edib.

İldönümü ərəfəsində rayonun Gəyəçöl kəndinin mərkəzində inşa edilmiş Şəhidlər Parkı istifadəyə verilib. Bu münasibətlə keçirilən mərasimdə diqqətə çatdırılıb ki, bu abidə bütün şəhidlərimizin ruhuna hörmət və ehtiramın ifadəsidir. Masallı şəhərindəki Gənclər Mərkəzində isə 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş rəsm müsabiqəsi, Boradigah qəsəbəsindəki idman zalında isə 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş futzal birinciliyi keçirilib. Qaliblərə diplom, kubok, qiymətli hədiyyələr və pul mükafatı verilib.

Lerik

Rayon icra hakimiyyəti başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "20 Yanvar faciəsinin otuzuncu ildönümünün keçirilməsinə dair tədbirlər planı"na uyğun olaraq son günlər ərzində Lerikin idarə, təşkilat və müəssisələrində, ümumtəhsil məktəblərində 20 Yanvar şəhidlərinin xatirəsini yad etmək məqsədilə silsilə tədbirlər keçirilib.

Yanvarın 20-də isə ümumrayon anım mərasimi keçirilib. Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, təşkilat və müəssisələrinin kollektivləri, ağsaqqallar və ictimaiyyətin nümayəndələri, məktəblilər "Şəhidlər" abidə kompleksinin önünə tər gül-çiçək dəstələri düzərək faciə qurbanlarının xatirəsini böyük qədirbilənliklə yad ediblər. Şəhidlərin ölməz ruhuna dualar oxunub.

Anım mərasimində Lerik şəhər 1 saylı texniki fənlər təmayüllü lisey şagirdlərinin ifasında ədəbi-bədii kompozisiya nümayiş etdirilib. Saat 12:00-da rayon ərazisində şəhidlərin xatirəsi bir dəqiqlik sükutla yad edilib. Tədbirdə vurğulanıb ki, xalqın ruhuna azadlıq toxumu əkmiş şəhidlər hər zaman beləcə ehtiramla anılacaqlar.

Yardımlı

Dağlar diyarı Yardımlıda şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksində izdihamlı anım mərasimi keçirilib. Səhər saatlarından başlayaraq, minlərlə rayon sakini 20 Yanvar şəhidlərinin xatirəsini böyük ehtiramla yad edib.

Anım mərasimində rayon icra hakimiyyətinin başçısı Ayaz Əsgərov, hüquq-mühafizə orqanları, idarə, müəssisə və təşkilat rəhbərləri və əməkdaşları, məktəblilər, ziyalılar, II Dünya və Qarabağ müharibəsi veteranları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Onlar 20 Yanvar şəhidlərinin abidəsi önünə əklillər, təzə-tər gül dəstələri qoyaraq Vətən uğrunda həlak olmuş azadlıq mücahidlərinin ruhuna dualar oxuyublar.

Ziyarət gün ərzində davam edib. Mərasimdən sonra rayon icra hakimiyyəti tərəfindən şəhid ailələrinə ərzaq yardımları verilib.

Biləsuvar

Qədim Muğanın gözəl şəhəri Biləsuvarın Mərkəzi parkında 20 Yanvar şəhidlərimizin əziz xatirəsinə ucaldılmış abidə kompleksinin qarşısında anım tədbiri keçirilib. Səhər saatlarından rayon ictimaiyyəti dəstə-dəstə buraya gələrək, şəhidlərin ölməz ruhuna ehtiram duyğularını ifadə edib.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Mahir Quliyev, hüquq-mühafizə orqanlarının rəhbərləri, ağsaqqallar, müharibə veteranları və gənclər iştirak ediblər. Saat 12-də azadlıq mücahidlərinin xatirəsi bir dəqiqəlik sükütla yad olunub.

Mahir Quliyev tədbirdə çıxış edərək Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar faciəsi barədə ətraflı məlumat verib. Bildirilib ki, Azərbaycan xalqı azadlıq uğrunda canlarını qurban verən şəhidlərin və cəsur Vətən övladlarının qəhrəmanlıq mübarizəsini çox böyük hörmət və ehtiramla əziz tutur, onların igidliyini yüksək qiymətləndirir. Mərasimdə iştirak edən rayon ictimaiyyətinin nümayəndələri şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə tər çiçəklər qoyaraq, əziz xatirəsini ehtiramla yad ediblər.

Şirvan

Şirvan şəhərində 20 Yanvar faciəsində Azərbaycanın suverenliyi uğrunda canlarından keçən şəhidlərin xatirəsinə ucaldılmış abidənin önündə Şirvan şəhər İcra Hakimiyyəti, hüquq-mühafizə orqanlarının, əmək kollektivlərinin və şəhər ictimaiyyəti nümayəndələrinin iştirakı ilə 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar ümumşəhər tədbiri keçirilib.

Anım tədbrində öncə həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutaraq şəhidlik zirvəsinə ucalmış mərd Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükütla yad edilib, şəhidlərin ruhuna dualar oxunub.

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov anım tədbirində çıxış edərək bildirib ki, 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun hərbi birləşmələrinin Azərbaycanda törətdiyi kütləvi qırğından 30 il keçməsinə baxmayaraq, xalqımız həmin faciənin ağır nəticələrini bu gün də xatırlayır. Vətənin azadlığı və suverenliyi uğrunda canından keçmiş oğul və qızlarımızın xatirəsi dərin ehtiramla yad edilir. Məhz xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək, Bakıda yüzlərlə insanın qətlə yetirilməsini Azərbaycan xalqına qarşı cinayət adlandıraraq hadisəyə hüquqi və siyasi qiymət verilməsini tələb edib. Yalnız ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə qayıtdıqdan sonra –1994-cü ilin mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edib və respublika səviyyəsində faciəyə hüquqi-siyasi qiymət verilib.

İlqar Abbasov qeyd edib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin hücum xarakterli diplomatiyası, dövlət müstəqilliyimizin güclənməsi, ölkəmizin hərtərəfli inkişafını təmin edən siyasəti, regionda və beynəlxalq aləmdə artan nüfuzu deməyə əsas verir ki, xalqımızın haqq işi, ədalətli mövqeyi tezliklə qalib gələcək, Dağlıq Qarabağ problemi həll ediləcək, işğal olunmuş torpaqlarımız azad ediləcək, xalqımızın qəhrəmanlıq səlnaməsini yazan şəhidlərimizin ruhu şad olacaqdır.

Çıxış edənlər qeyd ediblər ki, 20 Yanvar günü ölkəmizdə ümumxalq hüzün günü kimi qeyd edilməklə yanaşı, eyni zamanda, Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizə, rəşadət və qəhrəmanlıq günüdür. Çünki həmin gün öz xalqının azadlığını, şərəf və ləyaqətini uca tutan Vətən övladları canlarından keçərək, şəhidlik zirvəsinə yüksəldilər. Azərbaycanın azadlığı, suverenliyi uğrunda canlarını fəda edən şəhidlərin əziz xatirəsi qədirbilən xalqımızın qəlbində bundan sonra da əbədi yaşayacaqdır. Sonra şəhər rəhbərliyi və ictimaiyyət nümayəndələri tərəfindən "Şəhidlər xiyabanı"nda və "El qəbiristanlığı"nda uyuyan şəhid məzarları ziyarət olunub, gül dəstələri qoyulub, şəhidlərin ruhlarına dualar oxunub, şəhid ailələri ilə görüşülərək onlara baş sağlığı verilib.

Gəncə

Gəncədə ölkənin müstəqilliyi və suverenliyi uğrunda həlak olan şəhidlərin xatirəsi ehtiramla yad edilmişdir. Anım mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, ictimaiyyət nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları, təhsil və səhiyyə işçiləri, şəhid ailələrinin yaxınları iştirak etmişlər.

Əvvəlcə Şəhidlər xiyabanının girişində Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə ölmüş və itkin düşmüş şəxslərin xatirəsinə inşa edilmiş, üzərində 90 nəfərin adı yazılmış abidə ziyarət olunmuş, önünə güllər düzülmüşdür.

Daha sonra şəhər rəhbəri tərəfindən Şəhidlər Memorial Kompleksi abidəsi önünə əklil qoyulmuşdur. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndirilmiş, şəhidlərin ruhuna dualar oxunmuşdur. Saat 12:00-da avtomobillər, yanğınsöndürən maşınlar vasitəsilə səs siqnalları verilmiş, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Mərasim iştirakçıları şəhid məzarlarını ziyarət etmişlər.

Şəhər icra hakimiyyətinin başçısı şəhid ailələri ilə görüşmüş, onların problemləri ilə maraqlanmışdır.

Şəmkir

Əvvəlcə şəhərdəki abidə kompleksi önünə gül dəstələri qoyulmuşdur.

Sonra məktəblilərin ifasında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş kompozisiyalar təqdim olunmuşdur.

Rayon ərazisində Dövlət bayrağı endirilmiş, saat 12-də şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunmuş, nəqliyyat vasitələri ilə səs siqnalları verilmişdir.

Sonra tədbir iştirakçıları Şəhidlər xiyabanına yürüş keçirmişlər. Rayon rəhbərliyi və tədbir iştirakçıları şəhidlərin məzarlarını ziyarət edərək onların üzərinə tər çiçəklər qoymuşlar.

Rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov şəhid ailələrinə başsağlığı verərək, onların Vətən, xalq qarşısında əvəzsiz xidmətlərini qeyd etmişdir. Rayon rəhbəri demişdir ki, Azərbaycan xalqının qürur mənbəyinə çevrilmiş 20 Yanvar faciəsindən 30 il keçməsinə baxmayaraq, həmin hadisə təkcə Ümumxalq Hüzn Günü kimi deyil, eyni zamanda, öz azadlığına və müstəqilliyinə can atan xalqımızın mübarizliyini, məğrurluğunu nümayiş etdirən qəhrəmanlıq tarixi kimi qeyd olunur.

Ziyarətçilər məzarlar üzərinə qərənfillər düzmüş, müstəqilliyimiz uğrunda həlak olanların xatirəsini yad etmiş, onlara Allahdan rəhmət diləmişlər.

Tovuz

20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar Tovuz şəhərindəki Şəhidlər xiyabanında, Qovlar şəhərində, Əlimərdanlı, Əyyublu, Düz Qırıqlı, Əlibəyli, Hacıalılı, Ağdam və Aşağı Quşçu kəndlərində anım mərasimləri keçirilmişdir.

Tədbirlərdə rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının nümayəndələri, rayonun idarə, müəsissə və təşkilatların kollektivləri, yerli sakinlər iştirak etmişlər. Həmin gün minlərlə insan şəhərdəki Şəhidlər xiyabanını, kəndlərdəki 20 Yanvar abidələrini, şəhid məzarlarını ziyarət etmiş, onların önünə gül dəstələri düzmüş, ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

Məktəblilər kəndlərdəki abidə kompleksləri önündə şəhidlərin unudulmaz xatirəsinə həsr edilmiş şeir parçaları səsləndirmişlər.

Rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov şəhid ailələri ilə görüşmüş, şəhidlərimizə Allahdan rəhmət diləmişdir.

Gədəbəy

Gədəbəydə 20 Yanvar faciəsinin 30-cu ildönümü münasibətilə Şəhidlər xiyabanında ümumrayon anım mərasimi keçirilmişdir.

Rayon icra hakimiyyətinin başçısı İbrahim Mustafayev, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyətin nümayəndələri mərasimdə iştirak etmişlər. Minlərlə insan xiyabana gəlmiş, şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksi önünə gül dəstələri düzmüşdür,

İbrahim Mustafayev şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və iştirakçıları, rayon ağsaqqalları və veteranları ilə görüşmüş, onların qayğıları ilə maraqlanmışdır.

Saat 12-də şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad olunmuş, küçələrdə nəqliyyatın hərəkəti dayandırılmış, maşınlardan səs siqnalları verilmişdir.

Daha sonra tədbir rayon Aşıqlar evində davam etdirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə məktəblilərin 20 Yanvara həsr olunmuş əl işlərindən ibarət rəsm sərgisi ilə tanış olmuşlar. Rəsm müsabiqəsinin qalibləri mükafatlandırılmışlar. Slavyanka kənd 1 saylı tam orta məktəbin şagirdləri tərəfindən hazırlanmış ədəbi-bədii kompozisiya nümayiş etdirilmişdir

Qazax

Şəhərin mərkəzində ucaldılmış Şəhidlər xiyabanındakı abidə kompleksi önündə 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar izdihamlı anım mərasimi keçirilmişdir.

Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov, aparatın məsul işçiləri, hüquq-mühafizə orqanlarının, hərbi hissələrin, ictimai təşkilatların və yaradıcılıq birliklərinin, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin kollektivləri, şəhər sakinləri anım mərasimində iştirak etmişlər. Şəhidlərin ruhuna dualar oxunduqdan sonra Dövlət himni səsləndirilmişdir.

Sonra könüllülərdən Bakı Dövlət Universitetinin Qazax filialının tələbəsi Pəri İbrahimova, Qazax Dövlət Sosial-İqtisadi Kollecinin tələbələriLəman Hüseynova və Tutu Qocayeva şəhidlərə həsr olunmuş şeirlər söyləmişlər. Daha sonra abidə kompleksi önünə gül dəstələri qoyulmuş, Vətənin azadlığı uğrunda canlarından keçmiş oğul və qızlarımızın əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

Tədbir boyu xiyabanda həzin musiqi səsləndirilmişdir. Bakı vaxtı ilə saat 12:00-da Qazax rayonunda da şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Samux

20 Yanvar faciəsinin 30-cu ildönümü münasibətilə Bayraq meydanından başlanan yürüş Şəhidlər Kompleksi önündə başa çatmışdır.

Rayon icra hakimiyyətinin başçısı Alı Qocayev, hüquq-mühafizə orqanlarının rəhbərləri, əmək kollektivlərinin, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin nümayəndələri, rayon sakinləri şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə, eləcə də şəhidlərin məzarları üzərinə qərənfillər düzmüşlər.

Rayon məktəblilərinin faciənin 30-cu ildönümünə həsr olunmuş rəsm sərgisi tədbir iştirakçılarında böyük maraq doğurmuşdur.

Zaqatala

İnsanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olan 20 yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar Zaqatala rayonunda da tədbir keçirilib. Rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri və rayon ictimaiyyətinin nümayəndələri şəhidlərin xatirə kompleksinə gələrək, onların ölməz xatirəsini ehtiramla yad edərək, önünə gül-çiçək düzüblər.

Xatirə kompleksinin qarşısında davam edən tədbirdə Mübariz Əhmədzadənin "Qəhrəmanlıq salnaməsi" mövzusunda məruzəsi dinlənilib. Məruzədə ümummilli lider Heydər Əliyevin 1990-cı il yanvarın 21-də sovet imperiyasının bütün qadağalarına baxmayaraq, Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək, xalqımıza qarşı törədilmiş bu qanlı cinayətlərin təşkilatçılarını və iştirakçılarını pisləyən bəyanat verdiyini və həmin bəyanatın xalqımızın haqqını müdafiə edən, onun köməksiz olmadığını bütün dünyaya yayan cəsarətli bir addım olduğunu bildirib.

Digər natiqlər Azərbaycan Respublikasının ərazi bütövlüyü, azadlığı, müstəqilliyi uğrunda həyatından keçən bütün soydaşlarımızla fəxr etdiklərini qeyd edib, dövlət tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğını xatırladıb, buna görə ölkə rəhbərinə öz minnətdarlıqlarını bildiriblər.

20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı rayonun yaşayış məntəqələrində, təhsil, səhiyyə və mədəniyyət ocaqlarında anım mərasimləri, foto və rəsm sərgiləri təşkil olunub, müsabiqələr keçirilib. Rayondakı bütün şəhid ailələrinə yardımlar göstərilib, ehsan süfrələri təşkil olunub və şəhidlərin ruhuna dualar oxunub.

Kürdəmir

20 Yanvar faciəsi qurbanlarının otuzuncu ildönümü – Ümumxalq Hüzn Günü Kürdəmirdə də böyük ehtiramla yad edilib.

Tədbir iştirakçıları rayonun "20 Yanvar" parkına gələrək "Ana harayı" abidəsinin önünə gül-çiçək dəstələri düzüb və şəhidlərin xatirəsini ehtiramla yad ediblər. Mərasimdə məktəblilərin ifasında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş kompozisiya dinlənilib. Şagirdlərin əl işlərindən ibarət rəsm sərgisi və 20 Yanvar faciəsini özündə əks etdirən kitablar təqdim olunub.

Rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərov, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri, həmçinin 2016-cı il aprel ayının 2-də gedən döyüşlərdə erməni mövqelərinə aviasiya zərbələri endirən zaman düşmən tərəfindən vurulan "Mİ-24" helikopterində şəhid olan hərbçimiz, baş leytenant, şəhid Əbubəkr İsmayılovun yaşadığı evin qarşısındakı barelyefin önünə gül dəstəsi qoyublar. C.Cəfərov bildirib ki, şəhidlərimizin qanı heç vaxt yerdə qalmayıb və qalmayacaqdır.

Sonra rayon rəhbərliyi və tədbir iştirakçıları Şəhidlər xiyabanında ucaldılmış abidənin önünə gül dəstələri düzüblər.

RİH başçısı şəhid ailələrinə başsağlığı verərək, onların Vətən, xalq qarşısında əvəzsiz xidmətlərini qeyd edib. Tezliklə ölkə rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan doğma ata-baba yurdlarımızın azad ediləcəyini bildirib.

Şamaxı

Anım mərasimində RİH başçısı Tahir Məmmədov, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, ictimaiyyətin nümayəndələri, rayon gəncləri, tələbələr və məktəblilər iştirak ediblər.

Əvvəlcə ölkəmizin müstəqilliyi, xalqımızın azadlığı uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi 1 dəqiqəlik sükutla yad edilib və onların ruhlarına dualar oxunub.

20 Yanvar faciəsini Azərbaycana qarşı törədilmiş qəddar terror aktı kimi qiymətləndirən rayon sakinləri bildiriblər ki, sovet imperiyasının məqsədi xalqımızın azadlıq əzmini qırmaq olsa da, məqsədinə nail ola bilməmişdir. Əksinə, millətimizin mübarizliyi daha da artmış, müstəqil Azərbaycan Respublikasının əsası qoyulmuşdur.

Tahir Məmmədov və rayon ictimaiyyətinin nümayəndələri Qanlı Yanvar faciəsində şəhid olmuş rayon sakinlərindən Məmmədov Vidadi Üzeyir oğlunun və İsrayılov Ağanəzər Araz oğlunun məzarlarını ziyarət etdikdən sonra ailə üzvləri ilə birlikdə ehsan süfrəsində iştirak ediblər. İcra başçısı xalqımızın müstəqilliyi və azadlığı uğrunda mübarizədə həyatını qurban verən övladlarımızın xatirəsini həmişə uca tutan ulu öndər Heydər Əliyevin 20 Yanvar faciəsinə hüquqi və siyasi qiymətin verilməsi üçün göstərdiyi xidmətlərindən, dövlətimizin şəhid ailələrinə diqqət və qayğısından danışıb.

20 Yanvarın xalqımızın qürur və qəhrəmanlıq tarixi olduğunu qeyd edən natiq, hər bir azərbaycanlının ölkənin azadlığı uğrunda canlarından keçən şəhidlərimizlə fəxr etdiyini, onların əziz xatirəsinin həmişə olduğu kimi, bu gün də Şamaxıda böyük ehtiramla yad olunduğunu bildirib.

Əli NƏCƏFXANLI,
Səməd HÜSEYNOĞLU,
Hamlet QASIMOV,
İlqar HƏSƏNOV,
"Xalq qəzeti"nin bölgə müxbirləri